# VƏTƏNİMİZİN AZADLIQ TARİXİ QORXMAZ CƏNGAVƏRLƏRİMİZİN QANI İLƏ YAZILMIŞDIR

**Qarabağ Azərbaycanın əzəli və ayrılmaz hissəsidir. Biz Azərbaycanımızın azadlığı üçün vuruşan igid oğullarmızı unutmamalıyıq. Onların hər birinin həyat və döyüş yolu bu gün bizlər üçün dəyərli örnəkdir. Biz özümüzdən sonra gələn gənc nəslə vətən savaşı ilə bağlı həqiqətləri çatdırmalı, qəhrəmanlarımızı tanıtmalıyıq.**

Müharibə iştirakçıları yaxşı bilirlər ki, döyüşlər müxtəlif formatlı filmlərdə olduğu kimi maraqlı və asan görünmür. Müharibə meydanı, ağır hərbi əməliyyatlar qorxaq və iradəsiz insanların yeri deyil. Yurd naminə azğın düşmən gülləsinə sinə gərmək üçün sağlam canın, dəmir iradən, döyüşkən ruhun və ən əsası köksündə Vətən sevgisi ilə döyünən ürəyin olmalıdır. Biz fəxr edirik ki, Qarabağ müharibəsində on minlərlə cəsur oğullarımız gözlərini qırpmadan, canlarını əsirgəmədən düşmən üstünə yeridilər. Müharibədə iştirak etmiş bu döyüşçülərin həyatını qələmə alaraq onların şücaətini tarixin yaddaşında əbədiləşdirmək, gələcək nəsillərə çatdırmaq çox vacib bir məsələdir. Mərd döyüşçülərlə görüşmək, onlarla ünsiyyətdə olmaq bizi çox şərəfləndirir.

Belə cəsur döyüşçülərimizdən biri də Aydın Tahir oğlu Şabanovdur. Mənəvi varlığında Vətən eşqi, torpaq sevgisi, düşməni torpaqlarımızdan qovmaq inadı çox olduğuna görə Aydın Şabanov 1992-ci ildə Xocalı faciəsindən sonra könüllü surətdə "N" saylı xüsusi reyd dəstəsinə qoşulmuşdur. Bu dəstədə güclü döyüşçülər cəmləşmişdilər. İlk gündən etibarən Aydın Şabanov bacarıqlı və cəsur bir əsgər kimi sevilməyə başlamış və üstün döyüş keyfiyyətləri komandirlik tərəfindən daim qiymətləndirilmişdir.

Bu günlərdə onunla görüş zamanı müharibənin ağrı-acısını yetərincə dadmış AydınŞabanovun döyüş xatirlərini dinlədik. O, ordumuzun ilk xüsusi təyinatlı hərbi hissəsi olan "N" saylı xüsusi reyd dəstəsinin cəsur cəngavəri kimi Vətənimizin hər bir qarış torpağı uğrunda əzmlə vuruşmuş, erməni faşistlərinə qan uddurmuşdur. Aydın ona verilən hər bir ağır hərbi tapşırığın öhdəsindən gələ bilmişdir. Laçın, Goranboy, Ağdərə, və Füzuli rayonlarının müdafiəsi uğrunda gedən döyüşlərində fəal iştirak etmişdir.

Həqiqətən 1990-cı illərdə erməni təcavüzü hamı kimi Aydın Şabanovu da çox qəzəbləndirmişdi. Mərd xarakterində formalaşan möhkəm iradə, dözümlülük və qorxubilməzlik kimi müsbət amillər təcavüzkar düşmənə qarşı aparılan qanlı döyüşlərdə dəfələrlə özünü biruzə vermişdi. Bir bacarıqlı rabitəçi əsgər kimi fərqlənir və verilən tapşırıqların icrasında səhvə yol vermirdi. Hərbi məxfilik üzrə yaxşı təcrübə qazanmışdı. Qısa zaman ərzində əldə etdiyi müvəffəqiyyətlərə görə hərbi hissə komandirinin rabitəçisi təyin edilmişdi.

Hərbi əməliyyat zamanı maskalanma tələblərinə yaxşı əməl edirdi. Komanda-qərargah maşınında üzərinə düşən vəzifə borcalarını layiqincə yerinə yetirir və aldığı məlumatları operativ surətdə komandirliyə çatdırırdı. Tutduğu vəzifə ilə bağlı bilgilərini təlimlərdə qazanmışdı. Onun xidmət etdiyi "N" saylı xüsusi reyd dəstəsi təzə yaradılmışdı. Komandiri mayor Əzizağa Qəni-zadə idi. Peşəkar komandirin rəhbərliyi altında hər gün nəsə təzə bir bilgi əxz edirdi.

Aydının belə tez yetişməsinin bir obyektiv səbəbi də vardı. O, keçmiş sovet ordusunda da rabitəçi kimi xidmət göstərmiş və RLS-də baş operator vəzifəsini icra etmişdi. "N" saylı xüsusi reyd dəstəsində aparılan təlimlərdə Aydın Şabanov vaxtilə sovet əyyamında qazandığı hərbi peşə vərdişlərini bacarıqla təkrar edirdi. Bu hərbi hissənin şəxsi heyəti təxminən 120 nəfərə yaxın idi. Kəşfiyyat üzrə hazırlıq işləri daha çox yer alırdı. Dəstə daxilində təxminən 6-7 qrup vardı.

Aydın Şabanov o günləri belə xatırlayır: "Şəxsi heyətimiz Salyan kazarmasında təlim keçirdi. Mən isə 3 aya yaxın bir müddətdə Üçtəpə poliqonunda rabitə üzrə müvafiq təlimlərdə fəal iştirak etdim. Döyüş zonasına getmək barədə əmr qəfil verildi. Bu xəbəri, demək olar ki, hamı səbirsizliklə gözləyirdi. Hərbi hissə döyüşçülərimiz təcili olaraq Biləcəri dəmiryol stansiyasından yola salındılar. 1992-ci il iyun ayının 13-də şəxsi heyətimizilk hücum planımız üzrə təlim keçmək üçün Hacıkənddə yerləşdirildi. Təxminən 10 gün təlim tapşırıqlarını bacarıqla yerinə yetirdik.Sonra hərbi hissə Buzluq kəndinə yollandı. Hərtərəfli kəşfiyyat işi aparıldı.O zaman Ermənistandan gələn muzdlu döyüşçülər Goranboy kəndlərində mövqe tutmuşdular. Azərbaycanlılar yaşayan kəndləri qorxu altında saxlamağa çalışan erməni gavurları gecə-gündüz atəş açırdılar.

1991-ci ildə hələ qüvvədə olan SSRİ Daxili Qoşunlarının iştirakı ilə Kalço əməliyyatı keçirildi.Kalço əməliyyatı həmin o müzdlu erməni gavurlarını tutmaq və cəzalandırmaq məqsədilə həyata keçirildi. Təbii ki, onlar döyüş mövqeyi seçdikləri həmin kəndlərdə kəndçi ermənilərlə əlbir fəaliyyət göstərirdilər. Daxili Qoşunlar, o cümlədən Azərbaycan döyüşçüləri o kəndlərə girəndə silahlı ermənilər mülki əhali ilə bir yerdə çıxdılar. Həmin vaxt Buzluq kənd yüksəkliklərində bir qrup erməni sığınmışdı. Qorxu içərisində olsalar da, fürsət düşən kimi ətraf kəndlərdən azərbaycanlıları qovmağa çalışırdılar. O dövrdə SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunları və azərbaycanlı mayor Əhmədov Riyad (Allah rəhmət eləsin) adlı bir döyüşçü vardı.O, Daşaltı əməliyyatında həlak olmuş və döyüşlərdə göstərdiyi igidliklərə görə Azərbaycanın Milli Qəhrəmanı adını almışdır. Yəni onların iştirakı ilə keçirilən əməliyyatdan sonra bizim "N" saylı xüsusi təyinatlı hərbi hissəmiz gəlmişdi. Buzluq kəndində gedən döyüşlər zamanı 1 döyüşçümüz şəhid oldu. 3 yaralı əsgərimizi yaxşı təxliyə edə bildik. 2 ədəd PDM-miz minaya düşdü. Kəndin içinə sürətlə girdik. Çünki kənddə əhali yox idi. Dığalar yalnız yüksəkliklərdən bizə atəş açırdılar.

Axşam dəqiqələrində Başkənd yüksəkliyinin alınması barədə əmr aldıq.Gecə ikən komandir mayor Əzizağa Qəni-zadənin rəhbərliyi altındacəsur döyüşçülərimiz o kəndi ələ keçirdilər. Bu uğur döyüş ruhumuzu çox yüksəltdi. Keçirdiyimiz ağır döyüşlər, kəskin anlar heç yaddaşımdan çıxmır. Rabitə üzrə qabiliyyətimi nəzərə alaraq komandir məni öz yanında saxladı. Gecə ayıq-sayıqlığımızı itirmədik. Səhərə yaxın gördük ki, həmin kənddən 3 nəfər biz tərəfə gəlir. Çox həyəcansız hərəkət edirdilər. Çünki inanmırdılar ki,o kəndi ələ keçirə bilərik.Kənd əhalisi ermənilərdən ibarət idi. Demək olar ki,sakinlərin təxminən 1/3 hissəsi orada yaşayırdı. Komandirimiz yaxşı plan qurmuşdu. Qəfil əmr gəldi ki, axşam ikən həmin kənd silahlı ermənilərdən azad edilməlidir. Qaranlığın düşməsini gözləyirdik.

Hədəfə aldığımız 3 nəfərdən ikisi öndə, biri isə arxada irəliləyirdi. Amma azərbaycanlı olduğumuzu bilmədən bizə tərəf gəlirdilər. Komuflyaj formalı iki nəfər bizə yaxınlaşanda azərbaycanlı olduğumuzu anladı. Hiss etdik ki, ikisi də rusdur. Birinin əlində avtomat vardı, digəri silahsız idi. Təxminən 10 metr ara məsafəsi qalanda dedik ki, silahı yerə atın və təslim olun. Biri sözümüzə əməl etmədi və geri çevrilərək qaçdı. Bir qrupumuz qaçan rusun dalınca getdi. Amma o, əsir düşməmək üçün əl qumbarası ilə özünü partlatdı. Məlum oldu ki, onlar ermənilərin tərəfində vuruşan musdlu rus əsgəridirlər. Özünü öldürən Krasnoyarsk sakini idi.Cibindən bir məktub çıxdı. Anasına göndərdiyi bu məktubda yazmışdı ki, əziz anam, bu yaxınlarda evə gəlişimi gözlə. Axırıncı Azərbaycan basmaçılarını məhv etdikdən sonra öz mükafatımı alıb gələcəyəm. Bu kəlam bizi çox hiddətləndirdi. Muzdlu rus heç bir əsas olmadan azərbaycanlıları məktubda "basmaçı" adlandırmışdı.

Nə isə... axırda komandirimiz Ə. Qəni-zadənin göstərişi əsasında döyüşçülərimiz iki erməni əsirinin əl-ayaqlarını bağlayıb aiddiyyəti qurumlara təhvil verdilər. Günorta vaxtı kəndə düşdük. Kənddə yerli əhali az qalmışdı. Onlar bizi görəndə təlaşa düşərək meşəyə qaçdılar. Yaşlı insanlar qaça bilmədilər. Amma insanlığı üstün tutaraq biz onlarla kobud davranmadıq. Kəndi silahlı ermənilərdən təmizləyəndən sonra həmin gün Gülüstan kəndi istiqamətində irəlilədik.Gecəni Gülüstan yüksəkliklərində qaldıq. Səhər tezdən qəfil həmləyə keçdik.Günorta təxminən saat 14.00-15.00 radələrində Gülüstan tam şəkildə bizim əlimizdə idi. Burada da ermənilər yaşayırdılar. Həmin gecə güclü yağış yağmışdı. Xain dığaların bir çıxış yolu vardı, o yol da Talış kəndinə qalxırdı. Ermənilərin maşınları batıb palçıqlı yolda qalmışdı. Çoxlu sayda maşın və texnikaları qoyub qaçmışdılar. Mülki əhaliyə məxsus olan 800 ədədə yaxın maşın vardı. 1 ədəd piyadanın döyüş maşını isə meşənin içində qalmışdı. Görünür, çox qorxu içinə düşən dığalar döyüş texnikasını da yiyəsiz qoyub qaçmağı üstün tutmuşdular. Meşədə erməni meyidləri saya gəlmirdi. Onların yarısı mülki, yarısı isə muzdlu erməni döyüşçüsünün leşi idi.Ehtimal ki, dığaların əksəriyyəti bizim tərəfimizdən meşəyə atılan artilleriya atəşindən gəbərmişdilər.

Bizim istifadəmizdə 1 ədəd Qrad artilleriya qurğusu vardı. Bu, başqa hərbi hissəyə məxsus idi.Onun atəşindən sonra uğurlu həmlə edirdik.Düşmənin xeyli qüvvəsi həlak olurdu. Gülüstan kəndini azad etdikdən sonra Talış kəndi istiqamətində irəlilədik.Təxminən 6 saat meşədə gecələməli olduq. Lakin gözlədiyimiz əmr gəlmədi. Göstəriş verildi ki, geri qayıdaq. Növbəti döyüş yolumuz Füzuli bölgəsinə yönəldi. Komandirimizin böyük səyi və səriştəsi nəticəsində Füzuli rayonu ərazisində bir neçə kəndi azad etdik. Qəfil hücumlar həyat keçirdik. Düşmən müqavimət göstərə bilmədi. Çoxu qaçmağa üz tutdu. Hətta bir qismi öz döyüş texnikasını da döyüş meydanında qoyaraq yalnız öz canını qurtarmaq üçün qaçırdı.

***Ardı var...***